**Fərəcova Z.** Vətənə sevgi nümunəsi // Azərbaycan : - 2024. - 13 avqust. - **№ 171**. - S. 12.

Azərbaycanın 1990-cı illərdə Ermənistan tərəfindən işğal edilən iyirmi faiz ərazilərini azadlığa qovuşduran qəhrəman övladlarının sırasında dayandı. Ömrünü baharında vətənə fəda edən igidlərdən biri oldu Əmrah Əkbərov…

İkinci Qarabağ müharibəsi başlayanda iyirmi iki yaşındaydı Əmrah. O, 1998-ci il fevralın 21-də Lerik rayonunun Livədirqə kəndində dünyaya gəlmişdi. 2004-cü ildə Əmrah Əkbərov Livədirqə kənd orta məktəbinin birinci sinfinə getdi. Təhsilini 2005-ci ildən Bakı şəhərinin Xəzər rayonunda yerləşən 322 saylı tam orta məktəbdə davam etdirdi.

Hərbçi olmaq istəyi 2013-cü ildə Əmrah Əkbərovu Cəmşid Naxçıvanski adına hərbi liseyə apardı. 2016-cı ildə liseyi bitirən Əmrah daha bir arzusunu həyata keçirdi. Elə həmin il Heydər Əliyev adına Ali Hərbi Məktəbə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil oldu. Ali təhsil aldığı illərdə məqsədinə doğru inamla, əzmkarlıqla irəliləyirdi. Böyük maraqla hərb sənətinin sirlərini öyrənirdi. 2018-ci il iyunun 26-da, Azərbaycan Ordusunun yarandığı gün "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olundu. Layiq görüldüyü mükafat Əmraha sonsuz sevinc bəxş etməklə yanaşı, oxuyub öyrənməyə daha da həvəsləndirdi. Hərbi bacarığını təkmilləşdirməyə səy göstərdi. O, 2020-ci ildə məktəbi bitirib Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində leytenant rütbəsi alaraq, baş kəşfiyyatçı kimi xidmətə başladı.

Azərbaycanın ürəyi Vətən sevgisi ilə döyünən övladları əzəli ərazilərimizdən olan Qarabağ və Şərqi Zəngəzuru heç zaman Ermənistan silahlı qüvvələrinin işğalında qalmağa qoymayacaqdılar. Ermənistan həmin torpaqları otuz ilə yaxın idi ki, əsarəti altında saxlayırdı. Qəsbkar ölkənin silahlı qüvvələri Qarabağda, Şərqi Zəngəzurdu səngərlər qazır, istehkamlar qururdular. Həmin illərdə Azərbaycan dövləti münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərirdi. Torpaqlarımızın bir qarışını da güzəştə getməyəcəyimiz bəlli idi. Prezident İlham Əliyev istər ölkə daxilində, istərsə də beynəlxalq müstəvidə keçirilən tədbirlərdə hər zaman Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin qurulmasına yol verilməyəcəyini bəyan edirdi.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə hərbi cəhətdən gündən-günə güclənən Azərbaycanın sülh çağırışlarına və cəhdlərinə məhəl qoymayan Ermənistanın təxribatlarının ardı-arası kəsilmirdi. 1994-cü il mayın 12-də atəşkəs barədə razılığa gəlinsə də, işğalçı ölkənin silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri və mülki vətəndaşlarının yaşayış yerləri müxtəlif silahlardan intensiz olaraq atəşə tutulurdu. Atəşkəs dövrü olsa da, Azərbaycanın əsgər və zabitləri, eləcə də mülki şəxsləri şəhid olurdular. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başladı. 44 gün davam edən müharibədə

Azərbaycan Silahlı Qüvvələri Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda gedən döyüşlərdə misilsiz qəhrəmanlıq nümunəsi göstərdilər. İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən leytenant Əmrah Əkbərov da döyüşçü bacarığı, cəsurluğu, rəşadəti ilə düşmənə ağır zərbələr endirdi. Əmrah Əkbərov oktyabrın 12-də Hadrut döyüşlərində qəhrəmancasına şəhid oldu.
Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin leytenantı Əmrah Şahid oğlu Əkbərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə ölümündən sonra Prezident İlham Əliyevin sərəncamlarına əsasən, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.